# DƏRS MÜƏLLİMİN ƏSƏRİDİR

*VİDADİ XƏLİLOV,*
*Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunun şöbə müdiri, pedaqoji elmlər doktoru, professor, Azərbaycan Respublikasının əməkdar müəllimi*

Pedaqoji prosesin əsas özəyini, canını təşkil edən dərs belə yüksək qiymətə layiqdir. Çünki XVI-XVII əsrdən Ukrayna və Belorusiya qardaşlıq məktəblərinin, Makarenko pedaqogikasının müəyyən etdiyi dərs-sinif sisteminin tətbiqinə başlandığı vaxtdan üzü bu yana təlimin əsas təşkili forması olan dərs haqqında deyilənləri, yazılanları ümumiləşdirərkən bu qənaətə gəlir və böyük məmnunluq duyuruq. Ona görə ki, pedaqoji prosesin əsas həlledici mərhələlərindən olan dərc klassik mahiyyət kəsb edir. Zaman, illər, əsrlər keçsə də öz əhəmiyyətini itirmir, əksinə daha çox diqqət və qayğı obyektinə çevrilir. Bu da bir həqiqətdir ki, ən yaxşı məktəb, yaxşı dərs verən müəllim tədris etdiyi fənnin elmi-metodik əsaslarını mükəmməl bilməsi, zəruri anlayışları, biliklər sistemini şagirdlərinə daha dolğun şəkildə çatdırmaq bacarığı, pedaqoji ustalığı ilə tanınır.

Gəlin etiraf edək, parlaq zəkası, intellekual qabiliyyəti ilə seçilən şagirdləri, tələbə oğlanları və qızları, müxtəlif ixtisaslar üzrə meydana çıxan gənc kadrları görəndə tezcə də ortaya bu suallar çıxır:

«Sənə kim dərs deyib?», «Dərsini kimdən almısan?», «Filan müəllimin tələbəsisənmi?»

Həmin suallara alınan cavablar əslində elinə-obasına qəlbən yanan fədakar bir müəllim ömrünün-ləyaqətli vətəndaş əməyinin üzə çıxan cəhətləri, görünən tərəfləridir. Məhz elə buna görədir ki, klassik və müasir pedaqoqlar, təhsil sisteminin təcrübəli rəhbərləri pedaqoji prosesdə dərsin mahiyyətini, tutumunu həmişə diqqət mərkəzində saxlamış, müəllimlərin dərs vermək məharətinin yüksəlməsinə, daha parlaq şəkildə nəzərə çatmasına böyük əhəmiyyət vermişlər. Həmin pedaqoq alimlərin, maarif xadimlərinin adlarını, dərs probleminə həsr etdikləri əsərləri burada konkret şəkildə göstərmək imkanımız olmasa da, onların əməyini yüksək qiymətləndiririk. Çünki dərsdən-dərsin idrakı-tərbiyəvi imkanlarından yazmaq, mübahisəli məsələlərin hamının başa düşəcəyi şəkildə elmi-pedaqoji şərhini vermək həmişə çətin olub, elə indi də çətindir.

Son illərdə müxtəlif devizlərlə keçirilən müsabiqələrdə, dəyirmi masalarda, elmi-praktik konfranslarda əsas məqsəd də əslində yaradıcılığı, müasir təlim texnologiyası makanlarını əməli fəaliyyətində əks etdirən ən yaxşı müəllimləri müəyyənləşdirməkdən, liderlərin nəyə qadir olduqlarını respublika səviyyəsində nümayiş etdirməkdən, yaranan təcrübəni yaymaqdan ibarətdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarının «Ən yaxşı ümumtəhsil məktəbi və ən yaxşı müəllim mükafatlarının təsis edilməsi haqqında» 4 sentyabr 2007-ci il tarixli sərəncamı respublikamızın təhsil sistemində böyük canlanmaya səbəb olub. Bu tədbir eyni zamanda respublikamızın ümumtəhsil məktəblərinin pedaqoji kollektivlərini, ayrı-ayrı fənn müəllimlərini yaradıcılıq axtarışlarına səfərbər edib. Bu tədbir öz növbəsində təlim prosesinin əsasını təşkil edən sinif-dərs sisteminin müasir vəziyyəti haqqında da aydın təsəvvür yaradacaq. Başqa cür də ola bilməz, çünki məktəb-müəllimə son nəticə etibarilə qiymət verərkən yenə dinlənilən dərslər, müəllimlərin dərs vermək məharəti əsas götürülür. Bu hər şeydən əvvəl məktəbin-müəllimin pedaqoji fəaliyyətinin əsas aynası olan dərsin pedaqoji mahiyyətindən-didaktik təbiətindən irəli gəlir. Əlbəttə, bütün bunlar yaxşıdır. Narahatçılığa səbəb başqa cəhətdir. Belə ki, bəzən həddən ziyada, necə deyərlər ultra-müasirlik dəbi ilə aşılanan çıxışlarda dərsə verilən tələblərdən, tətbiq olunan təlim metodlarından bəhs olunarkən klassik müddəalara, klassik yanaşma tərzlərinə laqeydlik göstərirlər.

Söhbətimizin bu yerində keçən əsrin 60-cı illərin sonu və 70-ci illərin əvvəllərində Azərbaycan məktəblərində dərsin təkmilləşdirilməsi, dərsə verilən müasir tələblərlə bağlı görülən işləri və bu işlərin başında duran Akademik Mehdi Mehdizadənin elmi-pedaqoji konsepsiyasını xatırlamaq istərdik.

12 noyabr 1970-ci ildə müəllimlərin respublika elmi-praktik konfransında M.Mehdizadənin «Dərəcə verilən müasir tələblər» mövzusunda məhşur məruzəsini yada salaq. Akademik, nazir Mehdizadə məktəbindən keçənlər, Mehdizadə məktəbinin yetirmələri olan maarif-məktəb rəhbərləri həmin məruzəni, orada irəli sürülən və klassik mahiyyət kəsb edən fikirləri, pedaqoji prinsiplər rolunu oynayan tələbləri indi də xatırlayır və onlardan yaradıcılıqla istifadə edirlər:

- Təlimin bütün məzmununda elmiliyin təmin edilməsi, dərsdə bütün şagirdlərin məhsuldar işlə təmin edilməsi, onların idrak fəaliyyətinin və müstəqilliyinin qüvvətləndirilməsi, dərsin quruluşu, təlimin müxtəlif metod və priyomlarından dərslərdə istifadə edilməsi, dərsdə problem situasiyası yaradılması, dərsdə əks əlaqə məsələsi, tədris prosesinin intansivləşdirilməsi, təlim prosesinin fərdiləşdirilməsi, təlimin müasir texniki vasitələrinin dərsdə tətbiqi və digər problem məsələlər haqqında söylədiyi elmi-pedaqoji fikirləri yada salaq.

Gəlin görək, həmin pedaqoji tələblərin, ideyaların hansı indiki dövr üçün yaramır? Yaxud müxtəlif fənlərin tədrisində onlardan istifadə etmək mümkün deyil?

Müşahidələr, əldə olan faktik materiallar göstərir ki, akademik M.Mehdizadənin dərsə verilən müasir tələblərlə bağlı konseptual müddəaları uzun müddət sinif-dərs məşğələləri vasitəsilə şagirdlərin əqli-

mənəvi inkişafını təmin etməkdə mühüm rol oynamış, müəllimlərimizin fəaliyyət kompasına çevrilmişdir.

Əhəmiyyətli cəhət budur ki, haqqında bəhs etdiyimiz həmin elmi-praktik konfransın materialları ayrı-ayrı məruzə və çıxışlar «Müasir dərsə verilən tələblər haqqında» adı ilə 1971-ci ildə çap olunmuş, müəllimlərimizin, məktəb rəhbərlərinin stolüstü kitabına çevrilmişdir. Onu da qeyd edək ki, həmin vəsaitdə öz əksini tapan Mehdi müəllimin məruzəsi belə adlanır: «Dərsə verilən müasir tələblər haqqında». Düzü vəsaitin bu cür, məruzənin başqa cür adlandırılması hər dəfə həmin mənbəyə üz tutanda məni narahat edirdi. Mehdi müəllimlə görüşlərin birində bunun səbəbini soruşdum. Elə bildim deyəcək ki, mexaniki səhv gedib. Ancaq o məruzəsinin adının düzgün verildiyini bildirdi. Dedi ki, kitabın adı da məruzənin adı kimi nəzərə çatdırılmalı idi. Onun özünəməxsus sadə, səmimi, aydın, inandırıcı şərhini indi də minətdarlıqla xatırlayıram:

- Dərs klassik mahiyyət kəsb edir. Onu bu dəfə «müasir», gələn dəfə başqa bir cür adlandırmaq doğru olmaz. O başqa məsələ ki, dərəcə verilən müasir tələblər, o cümlədən zamana, dövrə görə ortaya çıxan tələblər irəli sürülür, yeni məna, məzmun kəsb edir.

Əlbəttə, unudulmaz Mehdi müəllimin bu sözlərini yeri gəldikcə müxtəlif xarakterili elmi-pedaqoji məclislərdə həmkarlarımın nəzərinə çatdırıram.

Akademik M.Mehdizadə elmi rütbəsindən, titulundan asılı olmayaraq bütün müəlliflərin dərs haqqında yazılarını, dərsə, onun didaktik imkanlarına həsr olunan bütün əsərləri diqqətlə nəzərdən keçirir, yeri gəldikcə tənqidi münasibətini də çox səmimi şəkildə bildirirdi. O özündən əvvəl deyilənlərlə razılaşmayanda və ya nəsə əlavə etmək lazım gələndə də fikrini həssaslıqla, nəzakətlə tərəfi müqabilinə çatdırırdı. Bu cəhətdən onun akademik M.N.Skatkinin 70-ci illərin əvvəlində dərs problemi haqqında yazdığı məşhur fikrinə münasibəti də çox heyrətamsizdir. M.N.Skatkin yazırdı:

«...Dərs pedaqoji prosesin bu və ya digər dərəcədə bitmiş bir parçası, yaxud hüceyrəsidir. Günəş bir damla suda əks olunduğu kimi təlimin bütün cəhətləri də dərsdə əks olunur. Bütünlüklə olmasa da, pedaqogikanın xeyli hissəsi dərsdə cəmlənir».

Akademik M.Mehdizadə isə dərs haqqında deyilən və mühüm əhəmiyyət kəsb edən həmin fikrə öz münasibətini belə ifadə edirdi:

«Haqlı sözdür, lakin zəif deyilmişdir. Dərs qat-qat yüksək qiymətə layiqdir. Dərsi pedaqoji prosesin «hüceyrəsi» yox «özəyi», həlledici, başlıca hissəsi hesab etmək olar. Onda pedaqogikanın «xeyli hissəsi» deyil, şagirdlərin təlim və tərbiyəsinin məzmunundan, formalarından, prinsip və metodlarından və s. bəhs olunan əsas hissələri cəmlənir».

Mübaliğəsiz deməliyik ki, dərsin sosial-pedaqoji mahiyyətinin şərh olunmasında, dərs probleminin nəzəri və təcrübi məsələlərinin diqqət

mərkəzində saxlanılmasında keçmiş SSRİ məkanında və dünya miqyasında tanınmış həmin alimlərin çox böyük rolu, misilsiz xidmətləri olmuşdur.

Yeri gəlmişkən qeyd edək ki, 70-80-cı illərdə dərs problemi ilə bağlı akademik M.Mehdizadənin konsepsiyası pedaqoji jurnalistlərin də nəzərindən qaçmamışdır. Məhyəddin Əbdülov, Cavad Cavadlı, Allahverdi Eminov, Məhəmməd Baharlı, Şamxəlil Məmmədov və başqaları dərs vermək məharəti ilə tanınan müəllimlərin iş təcrübəsini aşkarlayan kitablar, silsilə məqalələr yazmış, nəşr etdirmişlər.

Bütün bunlar bir daha belə bir fikir söyləməyə əsas verir ki, dərs çox böyük əhəmiyyət kəsb edən pedaqoji problem kimi həmişə diqqəti cəlb etmiş və indi də diqqət mərkəzindədir. Fərəhli haldır ki, Respublikamızda Təhsil İslahatı Proqramının həyata keçirildiyi indiki dövrdə məktəbi-təhsil sistemimizi daima diqqət mərkəzində saxlayan pedaqoq-psixoloq alimlərimiz, təhsil sistemində çalışan rəhbər işçilər, habelə praktik müəllimlərimiz də yeri gəldikcə məqalə və çıxışlarında dərsin daha aydın görünən və görünməyən tərəfləri haqqında öz fikrini inandırıcı şəkildə nəzərə çatdırırlar. Bu baxımdan məktəbşünaslıq sahəsində orijinal fikir və mülahizələrlə tanınan Asif Cahangirov və Fərzəli Qədirovun 2000-ci ilin sentyabr-oktyabr aylarında dərc etdikləri silsilə məqalələr çox böyük maraq doğurmuş, geniş əks-səda vermişdir. «Yeni pedaqoji təfəkkür» (14-20 sentyabr, № 37), «Müasir Dərs» (21-27 sentyabr, № 38), «Müasir dərs və onun tələbi» (28 sentyabr- 4 sentyabr, № 39), adlı məqalələr sözün həqiqi mənasında müəllimlərimizə, məktəb rəhbərlərimizə səfərbəredici təsir göstərmişdir. Diqqəti cəlb edən cəhətlərdən biri də budur ki, müəlliflər «Müasir dərs» anlayışını izah edərkən klassik və müasir mövqeləri, başlıca müddəaları əsas götürür, aşağıdakı mühüm cəhətlərlə səciyələndirirlər:

- *dərsdə şagirdlərlə səmərəli əks-əlaqənin təmin olunması, əməkdaşlıq şəraitinin, estetik-emosional mühitin yaradılması;*
- *müəllimin şagirdləri pedaqoji prosesin bərabərhüquqlu subyekti kimi qəbul etməsi;*
- *təlim metodları və üsullarının optimal seçilməsi, onların şagirdlərin yaşına və dinamik inkişaf səviyyəsinə uyğunluğu, habelə sistemli şəkildə tətbiqi;*
- *hər bir şagirdin fərdi-psixoloji, tədris-idrak və s. xüsusiyyətlərinin nəzərə alınması;*
- *dərsdə təlimin inkişafetdirici aspektinin gücləndirilməsi, diferensiallaşdırma və fərdiləşdirmə yolu ilə şagirdlərdə bilik və bacarıqların səviyyəsinin artırılması;*
- *şagirdlərin müstəqil fəaliyyəti, sərbəst rəy söyləmələri, başqasının, o cümlədən müəllimin fikrinə münasibət bildirmələri üçün əlverişli şəraitin yaradılması;*

*- şagirdlərə tədris materialındakı aparıcı ideyaları seçmək, habelə təhliletmə, ümumiləşdirmə bacarıqlarının aşılanması;*

*- şagirdlərə «öyrənməyi öyrətmək» zəminində təlim vərdişlərinin aşılanması, müxtəlif məlumatların, biliklərin əldə edilməsi yollarının, mənbələrinin müstəqil axtarılıb tapılması bacarıqlarının formalaşdırılması;*

*- şagirdlərin milli zəmində, vətənpərvərlik ruhunda tərbiyəsində dərsin imkanlarından istifadə edilməsi.*

Elə bilirik ki, göstərilən cəhətlər sözün həqiqi mənasında dərsin bu günün tələbləri baxımından dərs olmasını üzə çıxarmaq, klassik və müasir mövqeləri vəhdətdə götürmək baxımından olduqca əhəmiyyətlidir. Bu gün tam qətiyyətlə deməliyik ki, idraki inkişafa tərəqqiyə aparan bütün yollar dərsdən başlayır. Çünki dərs müəllimin əsəridir. Mövzusu, planı, quruluşu, kompozisiyası olan yaradıcı əsərdir.

Əhatə etdiyi elmi-sənət sahəsindən asılı olaraq hər hansı əsər üzərində işlərkən müəllif əvvəlcə mövzu seçir, mövzuya uyğun janr müəyyənləşdirir, nəzərdə tutduğu ideyanın tam mənasında açılması, oxucuya, dinləyiciyə, tamaşaçıya çatdırılması üçün əldə olan bütün vasitələrdən istifadə etməyə çalışır. Dərs də belədir. Onun da müəyyən mövzusu, tipi, forması, təzahür vasitələri var. Hər hansı sənətkarın əsər üzərində yaradıcılıq həyəcanı ilə ideal dərsə hazırlaşmağın və onu şagirdlərinə çatdırmağın yolları üzərində düşünərkən yaranan həyəcan arasında hər bir fərq yoxdur. Çünki dərs adlı geniş yayılan əsərin müəllifi elə müəllimin özüdür.